# Motivasiya-şagirdlərin ən önəmli güc mənbələrindən biri kimi

**Şəfəq İslam qızı İslamova**
*ADU-nun baş müəllimi*
**E-mail:** sh.islamova@.mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** motivasiya, zəif motivasiya, yüksək motivasiya, daxili motivasiya
**Ключевые слова:** motivation, low motivation, high motivation, intrinsic motivation
**Key worcds:** мотивация, слабая мотивация, высокая мотивация, внутренняя мотивация

Psixoloji bir fakt olan motivasiyanın dəyişik bucaqlardan ələ alınmış olması bir çox tərifinin edilməsinə səbəb olmuşdur. Motivlər ümumiyyətlə daxili və ya xarici olmaq üzrə iki ana kateqoriyaya ayrılar. Xarici motiv, fərdin xaricindən gələn təsirləri ehtiva edər. Bir şagirdin götürdüyü yüksək qeyd səbəbindən müəllimi tərəfindən təriflənməsi buna nümunədir. Daxili motiv isə, fərdin içində var olan ehtiyaclarına istiqamətli reaksiyalardır. Bütün davranışlarımız daxili motivasiyamıza bağlıdır. Motivasiya hər vaxt şüurlu və müşahidə edilə bilən ehtiyaclara istiqamətli olmaz. Adamı fərqində olmadan motivasiya edən şeylər vardır. Kəslər hər vaxt öz motivasiyalarının səbəblərini anlamazlar. Bəzən fərqində olmadığımız şeylərdən ötəri motivasiya olarıq. Motivlənmə davranışlar, ətraf və digər fərdi faktorların qarşılıqlı təsiri nəticəsində ortaya çıxmaqdadır.

Motivasiya anlayışı insan orqanizmini davranışa itələyən, bu davranışların şiddət və enerji səviyyəsini təyin edən, davranışlara müəyyən bir istiqamət verən və davamını təmin edən müxtəlif iç və xarici səbəbləri, bunların işlək mexanizmlərini ehtiva etməkdədir. Etdiyimiz davranışların hansılarının motivasiya edilmiş, hansılarının edilməmiş olduğuna qərar vermək hər vaxt çox asan olmamaqla birlikdə motivasiya edilmiş bir davranışdakı hərəkətlər digərlərinə nisbətlə daha mütəşəkkil olmuş, daha istiqamətləndirilmiş bir şəkildə cərəyan edər. Bu davranışların quruluşundakı canlılıq, sərf edilən enerji, dəyişməyə, dağılmağa qarşı olan müqaviməti, davam müddətləri və s. bizə bu davranışların motivasiya edildiklərini göstərər. Öyrənmə motivasiyasını təsir edən daxili və xarici faktorlar vardır. Xarici faktorlar çox müxtəlifdir. Daxili faktorlar isə daha çox öyrənməyə və bacarmağa qarşı olan tutumlarınız, əlaqələriniz, diqqət səviyyəniz və şəxsiyyət xüsusiyyətləriniz kimi daxili səbəblərlə əlaqədardır. Xarici faktorların motivasiyası artırmadakı rolu əhəmiyyətli olmaqla birlikdə, daxili faktorlar olmadan xarici faktorlar çox vaxt lazımlı motivasiyası təmin etməz.

Təlimdə motivasiya təhsilalanlarla əlaqəli olub, onları təlim prosesində iştirak etmək arzuları ilə təmin edir. Fəaliyyətsizlik, zəif motivasiya ilə müşayiət olunan təlimdə təhsilalanlar özləri özlərini ruhlandırmaqda çətinlik çəkirlər. Yüksək motivasiya olunmuş öyrənənlərlə qoyulmuş məqsədlərə, təlimin nəticələrinə yiyələnmək mümkün və asan olduğu halda, zəif motivasiya edilmiş öyrənənlərlə təlimin məqsədlərinə nail olmaq çətinləşir. Fəal təlim prosesində motivasiya açar rolunu oynayır və ən güclü təhrikedici, təsiredici bir faktordur. Motivasiya haqqında nəzəriyyələr onun iki növünü qeyd edir: daxili (təbii) motivasiya və xarici motivasiya. Daxili motivasiya özündə daxili motivasiya faktorlarını, xarici motivasiya isə xarici motivasiya faktorlarını cəmləşdirir. Daxili faktorlara öyrənənlərin özlərinin daxili ehtiyaclarını,

maraqlarını aid etmək olar. Xarici dil fənlərinin öyrənilməsi zamanı mövcud olan daxili motivasiyaya xarici vətəndaşlarla ünsiyyət qurmaq üçün yaranmış dil problemini daxili ehtiyac kimi, öyrənmək istədiyi dilin ölkəsinə, tarixinə, mədəniyyətinə, əhalisinə və s. olan həvəsi öyrənənin marağı kimi nəzərdən keçirmək olar. Öyrənmə həvəsini valideyn və müəllimin birgə fəaliyyəti nəticəsində əldə edilmiş ümumi "bacarıq" da adlandırmaq olar. Motivasiya ilə bağlı araşdırmalarda xarici motivasiya ilə müqayisədə daxili (təbii) motivasiya daha təhrikedici, güclü və önəmli hesab edilir. Bəzi müəlliflər hətta motivasiyaya insanı müəyyən nailiyyətlər əldə etməyə sövq edən daxili təhrikedici qüvvə kimi tərif verirlər. Şagirdləri motivləmək üçün bəzi təkliflərə yer verilməlidir. Dərs başlarkən maraqlı, çaşdırıcı, maraq oyandırıcı suallar qoyulmalı, dərsdə problemli situasiya yaradılmalıdır. İşləri mümkün olduğu qədər aktiv, araşdırıcı, həyəcanlı, və faydalı hala gətirin. Bütün şagirdlərin, nəyi necə edəcəklərini və çatacaqları hədəfə necə gedəcəklərini bilib bilmədiklərindən əmin olun. Şagirdlər arasında zəka, sosial, iqtisadi biliklərin olmasına. Məktəbə və dərslərə qarşı münasibətlərin fərdi olduğunu hər vaxt diqqətə alın. Şagirdlərin əsas ehtiyaclarını (bilik sahəsində) ödəmələrinə köməkçi olun. Sinfin fiziki şərtlərini nəzərə alın. Şagirdlərlə maraqlandığınızı onlara hər zaman hiss etdirin. Bütün şagirdlərin azda olsa möhtərəmlik qazana biləcəklərinə inandırmağa çalışın. Hər şagirdin təqdir edilmə ehtiyacını qarşılayacağı dərs daxili və dərs xarici fəaliyyətləri təşkil edin. Şagirdlərə hər mövzuda variantlar təqdim edin. Müsbət mənlik anlayışı inkişaf etdirmələrinə köməkçi olun. Şagirdlərin müstəqil öyrənmələrini təşkil edin, özlərini istiqamətləndirmələri üçün onları cəsarətləndirin. Ehtiyac duyan şagirdləri, öz etibarlarını və müvəffəqiyyət qazanma ehtiyaclarını inkişaf etdirmələri üçün cəsarətləndirməyə çalışın. Şagirdlərlə onların müvəffəqiyyət qazana bilmə motivini inkişaf etdirəcək texnikalardan istifadə edin. Uşaqlar nəyi öyrənmək istəyərlərsə, onu öyrənərlər.

Motivasiya - şagirdlərin davranışını, qərarlılığını, fəaliyyətini müəyyənləşdirən ən önəmli güc mənbələrindən biridir. Öyrənmək üçün hər şagird öyrənmə - öyrətmə prosesinə könüllü qatılmaq, öyrənmənin tələb etdiyi qaydalara tabe olmağa məcburdur. Motivasiyanı müəyyən məqsədlərə çatmaq üçün güc qazanma mənbəyi kimi görərkən, sinifdə kifayət qədər motivə edilməmiş şagirdin bu davranışları nümayiş etdirməsi normaldır. Şagird dərsə davamlı şəkildə gəlməz, diqqətli dinləməz, marağı dostlarına və ya digər insanlara yönəlmişdir, tapşırıqlarının həllində çətinlik çəkərkən həll yolunu tapmağa cəhd etməz, dərsə, mövzuya qarşı maraqsız görünərlər. Bundan fərqli olaraq, motivasiyası yüksək olan şagird dərslərə hazır gəlir, suallar verir, maraqlanır, diskussiyalarda iştirak edir və enerjisi yüksəkdir. Əgər şagird öyrənə bilmirsə bunun əsas səbəblərindən biri dərsə, mövzuya maraq göstərməməsidir. Müəllimin edəcəyi ilk şey həmin marağı təmin etməkdir. Bunun üçün nə lazımdır?

Maraq göstərmə və diqqət yetirmə - cəhd etməyə və lazımi zaman xərcləməyə istəkli olmaq. Mövzuya fikrini yönəltmə və çətinliklərlə qarşılaşdığında problemin üstünə getmədə qərarlı və inadkar olmaq.

Məktəbdə öyrənmə - öyrətmə prosesində yuxarıdakı göstərilənləri edə bilən şagirdin motivasiyasının qaydasında olduğunu göstərir. Öyrənilən materialların vacibliyini ifadə etmək, təhsil zamanı əldə olunacaq bilik və bacarıqların həyatda onun nə işinə yarayacağını, hansı problemlərin həllində istifadə edəcəyini bildirmək onları öyrənməyə təhrik edən amillərdir. Bu amillər həm daxili həm də xarici faktorların təsiri ilə ola bilir. Nəticə olaraq, hər ikisi orqanizmin bir davranışı reallaşdırmasında qərarlılığını hədəf alır. Ancaq orqanizmi hərəkətə keçirən güc mənbəyi zamanla dəyişilir. Daxili faktor amilində orqanizmi hərəkətə keçirən ünsür onun özüdürsə, xarici faktor amilində isə mühitin orqanizmə təsiri əsas götürülür.

**Məqalənin aktuallığı.** Tədqiqatın aktuallığı ondan ibarətdir ki, burada motivasiya müəy-

yən məqsədlərə çatmaq üçün güc qazanma mənbəyi kimi dəyərləndirilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə motivasiya - şagirdlərin davranışını, qərarlılığını, fəaliyyətini müəyyənləşdirən ən önəmli güc mənbələrindən biri kimi təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat təcrübi əhəmiyyət daşıyır. Tədqiqatda alınan nəticələr müəllimlərin və məktəb psixoloqlarının fəaliyyət sferasında tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Həmzəyev M.Ə., Seyidov S.İ. Psixologiya. Bакı: Nurlan, 2007.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bакı, 2000.
3. Əliyev M.S. Psixologiya atlası. Bакı, 2009.
4. Əliyev R.R. Psixologiya. Bакı: Qamma servis, 2003.
5. Əlizadə Ə.Ə. İdrак prosesləri və hisslər. Bakı, 2006.
6. Лефрансуа Ги. Прикладная педагогическая психология. СПб:, 2007.
7. Немов Р.С. Психология. М., 2006.
8. Маклаков С.Я. Общая психология. М., 2006.
9. Дружинин В.Н. Психология общих способностей. СПб., 2002.


**Ш.Ш. Исламова**

## Мотивация – как один из важнейших источников силы студентов

### Резюме

Мотивация является одним из важнейших источников силы, определяющей поведение, решительность и работоспособность учащихся. Для того чтобы учиться, каждый ученик должен добровольно участвовать в процессе обучения, следовать правилам, которых требует обучение. Когда вы рассматриваете мотивацию как источник силы для достижения определенных целей, это нормально для ученика, который недостаточно мотивирован в классе, чтобы демонстрировать такое поведение.

**Sh.I. Islamova**

## Motivation - as one of the most important sources of strength for students

### Summary

Motivation is one of the most important sources of strength that determines students' behavior, determination, and performance. In order to learn, every student has to voluntarily participate in the learning process, to follow the rules required by learning. When you see motivation as a source of strength to achieve certain goals, it is normal for a student who is not motivated enough in class to display these behaviors.

**Redaksiyaya daxil olub:** 28.04.2022